**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN**
**İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ**

AZ 1122 Bakı şəhəri,
H. Zərdabi küç. 96

Tel.: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçtu: office@isim.az http://www.isim.az

“____” ________________2014-cü il  № ______________

**ƏMR № 301**

**Bakı şəhəri** **17 sentyabr 2014-cü il**

**"Əhalinin səhiyyə sisteminə etimadının və göstərilən tibbi xidmətlərlə məmnunluq səviyyəsinin öyrənilməsi üçün sorğunun aparılması və həmin sorğu nəticələrinin sosial şəbəkələr vasitəsi ilə ictimaiyyətə açıqlanması barədə"**

Səhiyyə Nazirliyinin 14.01.2014-cü il tarixli 5 nömrəli əmri ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2014-cü il üçün illik İş Planının 26 (28.3) bəndinin icrası məqsədi ilə

ƏMR EDİRƏM:

1. 2014-cü ilin sonunadək Bakı, Gəncə, Mingəçevir, Lənkəran şəhərləri, eləcə də Masallı, Quba, Xaçmaz, Şamaxı, İsmayıllı rayonlarında əhalinin səhiyyə sisteminə etimadının və göstərilən tibbi xidmətlərlə məmnunluq səviyyəsinin öyrənilməsi üçün "exit-poll" üsulu ilə sorğu aparılsın.
2. Sorğu nəticələri əsasında hesabat hazırlansın.
3. Sorğu nəticələrinin sosial şəbəkələr vasitəsi ilə ictimaiyyətə açıqlanması təmin edilsin.
4. Sorğunun aparılmasının təşkili və keçirilməsi İlkin səhiyyənin təşkili şöbəsinin müdiri Lütfi Qafarova tapşırılsın.
5. Sorğu nəticələrinin sosial şəbəkələr vasitəsi ilə ictimaiyyətə açıqlanmasının təşkili İctimaiyyətlə əlaqələr və səhiyyə kommunikasiya şöbəsinin müdiri Aysel Hacıyevaya tapşırılsın.
6. Baş mühasib Abuzər Məmmədova qeyd olunan tədbirlərin keçirilməsi üçün əmrə əlavə edilən xərclərin smetası üzrə vəsaitin İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsinin təmin edilməsi tapşırılsın.
7. Əmrin icrasına nəzarət direktorun birinci müavini Rauf Məmmədova həvalə edilsin.

**Direktor** **Ceyhun Məmmədov**

**İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru cənab Ceyhun Məmmədova**

# MƏLUMAT

Səhiyyə Nazirliyinin 14.01.2014-cü il tarixli 5 nömrəli əmri ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2014-cü il üçün illik İş Planının 26-cı (28.3) bəndinin icrası məqsədi ilə İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən əhalinin səhiyyə sisteminə etimadının və göstərilən tibbi xidmətlərlə məmnunluq səviyyəsinin öyrənilməsi üçün sorğunun keçirilməsi və həmin sorğu nəticələrinin sosial şəbəkələr vasitəsi ilə ictimaiyyətə açıqlanması təklif olunur.

Sorğu zamanı əldə olunan nəticələr və onların ictimaiyyətə açıqlanması əhalinin səhiyyə sisteminə etimadının və göstərilən tibbi xidmətlərlə məmnunluğunun səviyyəsinin artırılması istiqamətində aparılan işin daha da təkmilləşdirməsinə imkan yaradacaq.

Bu məqsədlə İSİM tərəfindən Respublikanın Bakı, Gəncə, Mingəçevir və Lənkəran şəhərləri, eləcə də Masallı, Quba, Xaçmaz, Şamaxı və İsmayıllı rayonlarının ilkin səhiyyə xidmətləri göstərən tibb müəssisələrində "exit-poll" üsulu ilə sorğunun keçirilməsi, əldə olunmuş məlumatın işlənməsi və təhlili, hesabatın hazırlanması və nəticələrin ictimaiyyətə açıqlanması məqsədəuyğun hesab edilir.

Həmin tədbirlərin həyata keçirilməsi üzrə layihə təklifi əlavə edilir.

**İlkin səhiyyənin təşkili şöbəsinin müdiri** **Lütfi Qafarov**

16 sentyabr 2014-cü il

**Əhalinin səhiyyə sisteminə etimadının və göstərilən xidmətlərlə məmnunluq səviyyəsinin öyrənilməsi və həmin nəticələrin sosial şəbəkələr vasitəsi ilə ictimaiyyətə açıqlanması üzrə**

**LAYİHƏ**

| № | Tədbirin adı | Gözlənilən nəticələr | Tarix (2014) |
|---|---|---|---|
| 1. | Hazırlıq işlərinin təşkili | İşçi qrupun yaradılması,<br>müvafiq qurumlara məktublarla müraciət edilməsi,<br>aidiyyəti nümayəndələrlə əlaqələrin qurulması,<br>layihənin sahə işlərinin yerlərdə aparılması tarixlərinin müəyyənləşdirilməsi təmin ediləcək. | sentyabr-oktyabr |
| 2. | Sorğu dizaynının tərtibatı | Keçiriləcək sorğunun dizaynı tərtib olunacaq (məqsəd, vəzifələr, seçmə dizaynı, sorğu metodologiyası, marşrutlar, cədvəl və s.) | oktyabr |
| 3. | Sorğu anketinin hazırlanması və çapı | Əhalinin səhiyyə sisteminə etimadının və göstərilən xidmətlərlə məmnunluq səviyyəsinin öyrənilməsi üzrə anket hazırlanacaq və 500 ədəd çap olunacaq. | oktyabr |
| 4. | Sahə işlərinin aparılması | Sahə işləri üçün istiqamətlər üzrə 3 qrup yaradılacaq.<br>Sahə işləri aşağıdakı ərazilərdə aparılacaq:<br>1-ci istiqamət: Bakı və kəndləri;<br>2-ci istiqamət: Quba, Xaçmaz, Şamaxı və İsmayıllı;<br>3-cü istiqamət: Masallı, Lənkəran, Gəncə və Mingəçevir. | noyabr |
| 5. | Məlumatların statistik işlənilməsi | Məlumat bazası hazırlanacaq. Məlumatlar bazaya daxil ediləcək. Məlumatlar işlənilib təhlil ediləcək. | noyabr - dekabr |
| 6. | Hesabatın yazılması və çapı | Sorğu nəticələrinə dair hesabat hazırlanacaq. | dekabr |
| 7. | Nəticələr barədə məlumatın yayılması | Sorğunun nəticələri sosial şəbəkələr vasitəsi ilə ictimaiyyətə açıqlanacaq. | dekabr |